DOI: https://doi.org/10.36719/3005-3137/7/11-20

**Hüseynova Mahirə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Filologiya elmləri doktoru, professor
https://orcid.org/0000-0002-5135-1666
huseynova.mahira@yandex.ru

# Bəxtiyar Vahabzadə yaradıcılığında milli istiqlal ideyaları

## Xülasə

Bilindiyi kimi, milli-ideoloji məfkurənin təməlində ictimai-siyasi proseslər ciddi rol oynayır. Bu mənada ötən yüzilliyin sonlarında sovet siyasi rejiminin çöküşü və Azərbaycanın yenidən istiqlaliyyət əldə etməsi cəmiyyətin sosial-siyasi həyatında olduğu kimi, ədəbi-kulturoloji sferada da köklü dəyişikliklərin zəminini hazırlamış oldu. Məhz bunun nəticəsində ədəbi-nəzəri irsə münasibətdə mövcud ideoloji stereotiplər aradan qaldırılaraq milli-kulturoloji zəminə söykənən yeni baxışlar sisteminin formalaşdırılmasına başlanıldı. Müasir ədəbi prosesin yenidən araşdırılması meylinin güclənməsi də həmin zərurətdən qaynaqlanmaqdadır. Son illərdə Hüseyn Cavid, Mikayıl Müşfiq, Almas İldırım, Əhməd Cavad, Məhəmmədhüseyn Şəhriyar, Əli Kərim, Rəsul Rza, Xəlil Rza Ulutürk, Məmməd Araz və başqa sənətkarların yaradıcılıq yolunun yeni təfəkkür işığında təhlilə cəlb olunması bu baxımdan səciyyəvidir. Araşdırılmasına zəruri ehtiyac olan məsələlərdən biri Azərbaycan poeziyasında istiqlal ideyasının bədii təcəssümüdür. Bəhs olunan problemin öyrənilməsi baxımından xalq şairi Bəxtiyar Vahabzadənin (1925-2009) yaradıcılıq yolunun seçilməsi məhz qarşıya qoyulan məqsədin uğurla həyata keçirilməsi məramına xidmət etməkdədir.

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, müstəqillik, milli şüur, poetik irs, vətən sevgisi, milli kimlik.*

**Huseynova Mahira**
Azerbaijan State Pedagogical University
Doctor of philological sciences, professor
https://orcid.org/0000-0002-5135-1666
huseynova.mahira@yandex.ru

## National independence ideas in the creative works of Bakhtiyar Vahabzadeh

### Abstract

As is well known, socio-political processes play a crucial role in shaping national-ideological thought. In this regard, the collapse of the Soviet political regime at the end of the last century and Azerbaijan's reestablishment of independence paved the way for fundamental changes not only in the country's social and political life but also in the literary and cultural sphere. As a result, existing ideological stereotypes regarding literary-theoretical heritage were eliminated, and a new perspective rooted in national-cultural values began to take shape. The increasing tendency to reassess modern literary processes stems from this necessity. In recent years, the works of literary figures such as Huseyn Javid, Mikayil Mushfig, Almas Ildirim, Ahmad Javad, Mohammad-Hossein Shahriar, Ali Karim, Rasul Rza, Khalil Rza Uluturk, Mammad Araz and others have been analyzed in light of a renewed intellectual approach. One of the pressing issues requiring further study is the artistic representation of the idea of independence in Azerbaijani poetry. In this context, selecting the creative path of the prominent poet Bakhtiyar Vahabzadeh (1925–2009) for analysis serves the purpose of successfully addressing this important research objective.

***Keywords:*** *Azerbaijani literature, independence, national consciousness, poetic heritage, love for the homeland, national identity.*

### Giriş

Bəxtiyar Vahabzadə Azərbaycan poeziyası tarixində özünəməxsus yeri və mövqeyi ilə seçilən qüdrətli qələm sahiblərindən biridir. Onun qələminə məxsus "Gülüstan", "Mərziyə", "Yollar-oğullar" və s. kimi poemalar, çoxlu sayda şeirlər, habelə publisistik yazılar ədəbiyyatımızın təqdirəlayiq örnəklərindən hesab olunmaqdadır. Ədibin zəngin və rəngarəng poetik dünyasında yurdsevərlik, milli-mənəvi azadlıq, əxlaqi dəyərlərə və adət-ənənələrə ehtiram və s. kimi məsələlər diqqət çəkən məqamlardandır. Bu cəhət müəllifin şeir və poemalarında özünü aşkar şəkildə büruzə verməkdədir. Yaradıcılığa şeirlə başlayan, sonralar poema və dram

əsərləri yazan, heç bir zaman poeziyanın əsrarəngiz dünyasından ayrıla bilməyən şair istiqlal düşüncəsinə bağlılığına və bu düşüncəni əks etdirmə səriştəsinə görə öz dövrünün qələm sahiblərindən xeyli dərəcədə fərqlənir.

**Tədqiqat**

Bəxtiyar Vahabzadə poeziyaya ötəri münasibət bəsləməmiş, onu yaradıcılığının əsas, aparıcı formalarından birinə çevirə bilmiş, oxucuları düşündürən bir çox dəyərli bədii sənət nümunələri yaratmağa müvəffəq olmuşdur. Şairin yaradıcılığı Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Mikayıl Müşfiq, Səməd Vurğun və başqa Azərbaycan şairlərinin ədəbi ənənələrini özündə əks etdirməkdədir.

Bilindiyi kimi, Bəxtiyar Vahabzadənin istiqlal poeziyasında ana dili problemi mühüm yerlərdən birini tutmaqdadır. Müəllif daim bu məsələyə diqqət yetirmış, ayrı-ayrı yazılarında onun müxtəlif məqamlarını və aspektlərini qabartmağa çalışmışdır. Şairin qənaətincə, dil hər bir millətin varlığının ilkin təzahürlərindəndir; dilini qeyb edən bir toplumun öz mövcudluğunu qoruyub saxlaması mümkün deyildir.

Bəxtiyar Vahabzadə Sovet hakimiyyəti illərində qələmə aldığı "İftiraya cavab" adlı məqaləsində ana dili problemi ilə bağlı məsələyə özünün münasibətini bildirərək yazırdı: "Milli dildə məktəblərin və uşaq bağçalarının açılmasını tələb etmək hər bir xalqın ən adi və haqlı tələbi deyilmi? Əgər xalqın öz ana dilində tərbiyə almaq və oxumaq haqqı da yoxsa, o nə xalqdır?" Şair eyni zamanda, ana dili haqqında qənaətlərini ifadə edərkən ziyalıların mövqeyinə, dilin yaşadılması və inkişaf etdirilməsində onların roluna da münasibət bildirirdi: "Ziyalısı ana dilində danışmayan xalqın nəinki dili, özü də ölümə məhkumdur". (Ahundlu, 2010, s. 63)

Ədib 2002-ci ildə "Sandıqdan səslər"adı ilə nəşr etdirdiyi kitabına yazmış olduğu "Ön söz"də sovet siyasi rejimi dönəmində ana dili problemi ilə bağlı apardığı mübarizələrə münasibətini açıqlamışdır: "Mənim ən böyük mübarizəm sovet dövründə ayaqlar altında tapdanan, qapılar arxasında qalan ana dilimizin uğrunda həm əməli işimdə, həm də yaradıcılığımda ardıcıl mübarizə idi. Mən bu mövzuya onlarla məqalə, onlarla şeir və poema həsr etmişəm" (Vahabzadə, 2002, s. 92).

"Dili xalqın mənəvi dünyası, milli xüsusiyyətləri kimi dəyərləndirən və bu səbəbdən də dil ayrılığını ruh, psixologiya və mənəviyyat ayrılığı hesab edən" (Əliyeva, 1983, s. 51) Bəxtiyar Vahabzadənin "Ana dili", "Oğluma", "Latın dili", "Uzun illər boyu öz vətənindən", "Mənim ana dilim", "Özümdən özümə şikayət", "Fəxriyyə", "Özgə", "Mənim anam", "Hara gedir sabahımız" və bir sıra başqa şeirlərində ana dilinin milli-mənəvi düşüncənin formalaşmasındakı yeri və əhəmiyyəti haqqında danışılır, doğma dilə xor baxanlar, biganə münasibət

bəsləyənlər sərt şəkildə tənqid olunur.

Bəxtiyar Vahabzadənin "Özümdən özümə şikayət" (1993) adlı şeirində Azərbaycanın müstəqilliyə qovuşmasından sonra da ana dilinə biganə münasibətin davam etməsi bədii təhlil obyektinə çevrilmişdir. Şair millətin istiqlalına qovuşduğu illərdə istiqlalın təməlini təşkil edən, xalqı mübarizəyə ruhlandıran ana dilinə bu cür biganə münasibəti qəbul edə bilmir.

Bəxtiyar Vahabzadə "Ana dili" (1954) adlı şeirində hər bir xalqın, millətin taleyində doğma dilin son dərəcə mühüm əhəmiyyət daşıdığına diqqət yönəldərək, bununla bağlı poetik düşüncələrini qələmə almışdır:

Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək (Vahabzadə, 2008, s.74).

Yaradıcılığının ilk dövrünün məhsulu olan bu şeirdə müəllif ana dilini "millətin ruhu, eşqi, canı" kimi dəyərləndirir, onun "babaların əqlindən, kamalından"süzülüb gəldiyini, "xalqın ilk nəfəsindən" yarandığını qeyd edir. Şair, həmçinin ana dilini "əcdadımızın bizə qoyub getdiyi" "ən qiymətli miras", sərvət hesab edir. Biz insanların ən böyük vəzifəsini isə bu dili göz bəbəyi kimi qoruyaraq gələcək "nəsillərə hədiyyə" verməkdə görür.

"Latın dili"(1967) adlı şeirində dünyanın qədim toplumlarından olan latın millətinin məhv olması, ancaq dilinin yaşamasına diqqəti çəkməklə müəllif dolayısı ilə heç bir xalqı əsarətdə saxlamaqla məhv etməyin mümkün olmadığını vurğulamışdır.

Latın dili!
Hər sözündə dünya boyda yük daşıyır,
Latın dili!
Millət ölüb, dil yaşayır (Vahabzadə, 2008, s.92).

Kamil Quliyev "Latın dili" şeirini Bəxtiyar Vahabzadənin yaradıcılığında xüsusi yer tutan poetik örnəklərdən biri kimi dəyərləndirərək yazır ki, müəllif əsərdə "...şair, alim və həkimlərin istifadə etdiyi ölü dil olan latın dili ilə Atlantika sahilində imperialistlər tərəfindən yasaq edilmiş canlı dilləri müqayisə edir. Latın dilini bu dillərdən üstün tutur. Çünki bu dillər millət varkən kiçik, yoxsul komalarda dustaq olub, ədəbiyyat və mədəniyyət dili kimi işlənmir. Latın dili isə uzun əsrlərdən keçib gəlib, xalqı olmasa da, indi də işlənir". (Əliqızı, 1998, s.19) Tənqidçinin əsərin ideya

xəttini və yazılış səbəblərini doğru müəyyənləşdirdiyini qeyd etməklə bərabər, onu da xatırlatmağa ehtiyac vardır ki, şeirdə diqqəti çəkən məqamlardan biri müəllifin dolayısı ilə öz xalqının əsarət həyatına etirazını bildirməsi, sərt şəkildə bu ədalətsizliyə üsyan etməsidir. Belə ki, "latın xalqının öldüyü halda, dilinin yaşaması faktı şairə özü yaşaya-yaşaya dilini qeyb edən millət və toplumlar haqqında mülahizə yürütmək imkanı verir. Başqa sözlə, müəllif latın dilindən danışarkən Azərbaycan xalqının və dilinin əsarətdə olduğuna diqqəti yönəldə bilir". (Yusifli, 2009, s.34)

Qeyd edək ki, "Bəxtiyar Vahabzadə ana dilinin əhəmiyyətini, milli düşüncənin formalaşmasında rolunu ayrı-ayrı şeirlərində dönə-dönə canlandırmışdır. Şairin qənaətincə, hər bir millətin varlığı, mövcudluğu ana dilinin nə dərəcədə qorunub yaşadılması ilə bağlıdır". (Hüseynov, 2004, s.93)

Bəxtiyar Vahabzadənin Azərbaycanın Güneyində əsarət həyatı yaşayan soydaşlarımızın dil probleminə həsr olunmuş yazıları onun problemə daha geniş müstəvidə yanaşdığını, ana dilini milli istiqlal probleminin tərkib hissəsi kimi dərk etməsini şərtləndirir. Mütəfəkkir şair ikiyə parçalanmış Azərbaycan türklərinin İran-fars müstəmləkəçilik rejiminin basqıları altında ana dilində oxuyub-yazmaqdan məhrum edilməsinə dözə bilmir və bu haqsızlığa qarşı etiraz səsini ucaldır.

Ana dilinə bu qədər böyük dəyər verməsi B.Vahabzadənin bir vətəndaş olaraq öz xalqının taleyinə həssas münasibətinin göstəricisidir.

Bəxtiyar Vahabzadənin poeziyasında şəxsiyyət azadlığının insan və zaman kontekstində aşkarlanması şairin problemə daha geniş müstəvidə yanaşdığını göstərməkdədir. Bu isə o deməkdir ki, bir sənətkar kimi o, millətin azad, hürr yaşaması, dünya xalqları içərisində söz sahibi olması, milli özünüdərk məqamına yetişməsi, ən başlıcası isə vətəndaş kimi formalaşması üçün bir çox şərtlərin vacib olduğuna diqqət yönəldir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında dövrlə, mühitlə, zamanla barışmazlıq duyğusu olduqca qabarıqdır. Bu aspekt onun müxtəlif mövzularda yazdığı əsərlərdə bu və ya digər formada özünü büruzə verməkdədir. Zamanla, mühitlə müxalifətdə olan şairin ən böyük ixtilafı isə özü ilədir. Bu mənada "bircə ondan razıyam ki, özümdən narazıyam" hökm-qənaəti şairin həyat kredosunu şərtləndirir.

Bəxtiyar Vahabzadənin "Ölçü", "Qana bilmədi", "Dibçək gülləri", "İşıq axtarırsan", "İki qəbahət", "Əl qaldırmışam", "Zindanda təqdim", "Ehtiyat", "İki kor", "Elə bir fikir ki...", "Düşüncə-söz", "Dözüm", "Qayə", "Şairlər", "Salam, Nəsimi", "Bir böyük amala vurulan zaman", "Yevtuşenkoya məktub" və digər şeirləri şəxsiyyət azadlığının insan və zaman kontekstində aşkarlandığı poetik örnəklər kimi maraq doğurur. Adı çəkilən şeirlərdə müəllif problemə fərqli rakurslardan yanaşa bilmiş, onun müxtəlif aspektlərini aşkarlamağa çalışmışdır.

Müəllifin "Ölçü"(1963) adlı şeirində uşaqların hərəkətlərini məhdudlaşdıran, onları qorxaq böyüdən, hərtərəfli şəkildə yetişməsinə, inkişaf etməsinə mane olan valideynlər tənqid hədəfinə çevrilir. Şair "azad uşaq könlünə ölçü-biçi nə gərək?" deməklə, millətin sağlam gələcəyi üçün uşaqların və gənclərin təlim-tərbiyəsinin mühüm əhəmiyyət kəsb etdiyinə diqqət yönəldir.

Bəxtiyar Vahabzadənin şəxsiyyət azadlığının insan və zaman kontekstində aşkarlandığı yazılarından biri də "İki kor" (1968) adlı şeiridir. Orijinal ifadə tərzi ilə seçilən bu şeirdə müəllifin lirik qəhrəmanları mahiyyətcə bir-birindən kəskin şəkildə fərqlənən insanlardır. Onlardan birinin gözləri kor olsa da, ağlının gözləri ilə kor deyildir, buna görə də dünyanı, insanları görməyi, anlamağı və dəyərləndirməyi bacarır. Şairin digər qəhrəmanının gözləri görsə də, mənən kor olduğu üçün bu görmənin heç bir faydası yoxdur. Bu qarşılaşdırmada müəllif şəxsiyyət azadlığının insanın daxili-mənəvi dünyası ilə sıx bağlılığına dolayısı ilə işarə etmişdir.

Gözləri görməyən kor deyil hələ,
Görmək istəməyən kordur, deyərdim.
Belə müqəvvaya, belə cahilə
Həyatın özü də gordur, deyərdim. (Vahabzadə, 1988, s.85)

Şəxsiyyət azadlığı ilə bağlı bir qədər fərqli qənaətlərə Bəxtiyar Vahabzadənin "Fikir qanadlarım"(1969) adlı şeirində də təsadüf olunmaqdadır. Bu əsərdə diqqət çəkən əsas məqam müəllifin problemə yanaşma özünəməxsusluğu ilə şərtlənməkdədir. Şeirdən hasil olan qənaətə görə, hər bir cəmiyyətdə şəxsiyyət azadlığının təməlində fikir azadlığı dayanır. Əgər insan fikrən, ruhən azad deyilsə, cəmiyyət nə qədər azad olursa-olsun, fərdin, şəxsiyyətin azadlığının təminatçısı ola bilməz. "Fikir qanadlarım" şeirinin lirik qəhrəmanını mənsub olduğu cəmiyyətin digər fərdlərindən fərqləndirən cəhət "fikrinin qanadları olması», xəyalın qüdrəti ilə "kainatı Vətən kimi" dərk etməyi bacarmasıdır. Şair öz fikirlərini, düşüncələrini məhz azad, hüdudsuz olduğu, sərhəd, hüdud bilmədiyi üçün özündən böyük və uca hesab edir.

Mən azadam, azadam!
Mənzili görünməyən
Bir əbədi yolum var.
Məni yerdən qaldıran,
Həddi, hüdudu qıran
Fikir qanadlarım var. (Vahabzadə, 2002, s.62)

“Qayə”(1978) adlı şeirdə şair əqidəsiz, məqsədsiz, məramsız yaşayan, ictimai düşüncədən məhrum olan insanları insan kimi ömür sürmədiklərinə görə ciddi şəkildə qınaq obyektinə çevirir. Şairin qənaətincə, insan azadlığının təməlində qayənin, məsləkin mühüm rolu bir də onunla şərtlənir ki, məhz bu amillər şəxsiyyəti yetirir, kamilləşdirir və formalaşdırır. Buna görə də müəllif qayəni, əqidəni “həyat yolu” kimi dəyərləndirir, “həyatdan uca”hesab edir (Ahundlu, 2010, s.39).

Bəxtiyar Vahabzadənin “İşıq axtarırsan”(1991) şeirində insan və zaman kontekstində şəxsiyyətin üzərinə düşən sosial missiya bədii hədəf kimi seçilmişdir. Şeirin lirik qəhrəmanı yaşadığı cəmiyyətdən narazı olan, lakin onu dəyişmək üçün heç bir əməli fəaliyyət göstərməyən, yalnız ayrı-ayrı insanlarla söhbətlərində öz narazılığını büruzə verən qorxaq təbiətli bir insandır. Şair belələrini “qında”gizlənmiş “qılınca” bənzədir.

Müəllifə görə, cəmiyyətin inkişafı üçün hər bir şəxsiyyət mübarizə meydanına atılmalı, öz işi, əməli, fəaliyyəti ilə başqalarına örnək olmalıdır. Çünki yalnız fədakarlıq sayəsində həqiqi mənada vətənpərvərlikdən və mübarizlikdən danışmaq mümkündür.

Özgənin işığı göz aldadandır,
Əvvəl öz qəlbində göz dağın olsun.
İşıq axtarırsan, özünü yandır,
Zülməti yarmağa işığın olsun. (Vahabzadə, 1988, s.35)

İctimai motivlərlə zəngin olan “Zindanda təqvim” (1997) adlı şeirdə şair cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən şəxsiyyət azadlığının aparıcı aspektlərini qabartmağa çalışır. Şairin fikrincə, zindan hələ şəxsiyyət azadlığının geniş mənada cilovlanması demək deyildir. Belə ki, insan istənilən məkanda daxili-mənəvi azadlığını qoruyub saxlaya bilər, hətta zindanda belə. “Zindanda təqvim” şeirinin lirik qəhrəmanı azadlıq naminə insan üçün ən qiymətli sərvət olan vaxtın üzərindən xətt çəkir. O, bunu ona görə edə bilir ki, insan kimi yaşaya bilmək üçün azadlığın zərurətini dərk edir. Şəxsiyyət azadlığına bu qədər dəyər verməsi Bəxtiyar Vahabzadənin yaradıcılıq kredosunu səciyyələndirən amillərdəndir. Mövzusundan asılı olmayaq, şairin bütün əsərlərinin daxili qatında fərdi azadlıq istəyi özünü aşkar şəkildə büruzə verməkdədir. Məhz şəxsiyyət azadlığı müəllifin əsərlərində ictimai-siyasi azadlığa aparan amillərdən biri kimi diqqəti çəkməkdədir.

Bəxtiyar Vahabzadənin istiqlal poeziyasının əhəmiyyətli bir qolunu da Azərbaycanın Güneyi ilə bağlı qələmə aldığı poetik örnəklər təşkil edir.

Sovet siyasi rejimi dönəmində Azərbaycanın Quzeyində Güney mövzusunun

aktuallıq qazanmasında M.Şəhriyarın doğma ana dilində qələmə aldığı "Heydərbabaya salam" poemasının xüsusi təsiri olmuşdur. Bununla bağlı Almaz Əliqızının qənaətləri diqqəti cəlb edir: "Heydərbabanın" bütün Azərbaycanı fəth etməsi xalqın dərdlərini açıq, səmimi şəkildə, hər hansı ideologiyanın, rəhbər göstərişlərin diqtəsindən azad yazılması ilə müəyyən dərəcədə bağlıdır. Şəhriyarın istibdadı açıq damğalaması, quruluşun eybəcərliklərini nifrətlə üzə çıxarması elə Şimali Azərbaycanda totalitar rejimdən əziyyət çəkənlərin də ürəyinə su çiləmişdi.

Xatırladaq ki, Güney problemi yalnız B.Vahabzadəni deyil, o taylı bu taylı vətənpərvər qələm sahiblərini də dərindən düşündürmüşdür.

Hələ yaradıcılığının ilk dövrlərindən başlayaraq, Güney Azərbaycan mövzusunda əsərlər yazması şairin istiqlal məfkurəsinə bağlılığından qaynaqlanır. Belə ki, şairin qələminə məxsus "Cənublu bacıma», "Vətəndən Vətənə», "Şəhriyara" və digər şeirləri bu baxımdan maraq doğurmaqdadır.

Vətəndaş şair doğma Vətəninin ikiyə parçalanmasına, qədim tarixə malik olan millətinin ayrı-ayrı sərhədlər içərisində yaşamasına dözə bilmir. Xalqına qarşı yönələn bu haqsızlıq onu son dərəcə hiddətləndirir. Müəllif öz dərdini Bağdadda yaşayan, qürbətdən Vətənə boylanan Füzuli ilə müqayisə edir. Lakin Füzulidən fərqli olaraq, o, Vətəninə qürbətdən deyil, öz Vətənindən baxır:

Bu qəmim, bu dərdim dağlardan ağırdı,
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə... Vətəndən Vətənə baxıram (Vahabzadı 1999, s.85)

Bəxtiyar Vahabzadənin 1959-cu ildə yazdığı "Gülüstan" poeması sovet siyasi rejimi dönəmində qələmə alınmış poetik örnəklərdən biri kimi diqqət cəlb etməkdədir. O zaman gənc olan şair özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq bu poemanı çap etdirməyə təşəbbüs göstərmişdir. Lakin mərkəzi mətbuatda poemanı dərc etdirmək mümkün olmadığından bu əsəri çap etmək cəsarətini boynuna götürən "Şəki fəhləsi" qəzetinin redaktoru Məhyəddin Abbasova təqdim etmişdi. "Əsər 1960-cı ildə qəzetin 23 və 26 oktyabr saylarında dərc olunmuş, həmin dövr üçün kifayət qədər böyük və indi də xatırlanan bir qalmaqal yaratmışdır. Poemada müəllif yüksək poetik formada Azərbaycanın parçalanması və müstəmləkəçilik tarixinə bədii ekskurs etmiş, imperiyaların əlilə xalqın sürükləndiyi bu faciənin canlı mənzərəsini yaratmışdır" (Öztürk, 2014, s.73).

Bəxtiyar Vahabzadə yaradıcılığı Azərbaycan ədəbiyyatında milli istiqlal ideyalarının bədii ifadəsinin ən parlaq nümunələrindən biridir. Onun poeziyasında

azadlıq, milli kimlik və vətən sevgisi əsas mövzulardan biri kimi ön plana çıxır. "Şairin əsərləri Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin ədəbi güzgüsü olmaqla yanaşı, milli şüurun formalaşmasına və güclənməsinə mühüm təsir göstərmişdir" (Kamal, 2012, s.83).

Bəxtiyar Vahabzadə haqqında yazmaq yarım əsrdən artıq yaradıcılıq təkamülü keçirmiş kamil bir şəxsiyyəti araşdırmaq deməkdir, – öz-özlüyündə məlumdur ki, bu o qədər də asan deyil və təbii olaraq, məsələnin çətinliyini biz də hiss edirik; ancaq iş burasındadır ki, bütünlüklə milli hadisə olan B.Vahabzadə şəxsiyyəti, tədricən də olsa, şərh edilməli, açılmalı, müxtəlif yönləri ilə milli professional idrakın predmetinə çevrilməlidir. "Öz böyük şəxsiyyətlərindən sərf-nəzər edib özgə məktəb-şəxsiyyətlərindən öyrənməyə meyilli olan millət, nəticə etibarilə, milli emosiyalardan, təfəkkürdən məhrum olub özgələr kimi düşünür, özgələr kimi həyəcanlanır, millətin qarşısına mürəkkəb problemlər çıxanda üzünü mütiliklə ya Şərqə, ya da Qərbə çevirir. B.Vahabzadə milli təfəkkürün elə mükəmməl məhsuludur ki, belə bir məktəbi olan millət "savadsız" ola bilməz – birincisi ona görə ki, "savadsız" millətin bu qədər mükəmməl məktəb yaratması mümkün deyil; ikincisi ona görə ki, bu qədər mükəmməl məktəbi olan millətin həmin məktəbdən öyrənməməsi mümkün deyil" (Uslu, 2022, s.52).

## Nəticə

Araşdırmalar göstərir ki, Vahabzadə poeziyasında istiqlal ideyaları yalnız tarixi hadisələrin təsviri ilə məhdudlaşmır, eyni zamanda milli dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır. Onun yaradıcılığı XX əsr Azərbaycan poeziyasında milli ruhun dirçəlişi və müstəqillik arzularının ifadəsi kimi xüsusi yer tutur.

## Ədəbiyyat

1. Almaz Əliqızı. Güney Azərbaycan ədəbiyyatı: mərhələlər, təmayüllər, etüdlər, Bakı: Bakı Universiteti nəşriyyatı,1998, s.143
2. Ahundlu Yavuz. Karabağ imdat çığlığı. Ankara: Kültür Ajans Yayınları, 2010, s.221
3. Bəxtiyar Vahabzadə. Əsərləri: On iki cilddə, VI c. Bakı: Elm, 2008, s.447
4. Bəxtiyar Vahabzadə. Şəhidlər. Bakı: Elm 1990, s.46
5. Bəxtiyar Vahabzadə. İstiqlal. Bakı: Gənclik,1999, s.194
6. Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq. Bakı: Azərnəşr, 1988, s. 30-31
7. Bəxtiyar Vahabzadə. Sandıqdan səslər. Bakı: Təfəkkür, 2002, s.134
8. İfrat Əliyeva. Bəxtiyar Vahabzadənin lirikası, Bakı: Yazıçı, 1983, s.97

9. Vaqif Yusifli. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı: Mütərcim, 2009, 190 s.

10. Şirməmməd Hüseynov. Milli haqq və ədalət axtarışında. Adiloğlu, 2004, s.404-405

11. Kamal, E. Bahtiyar Vahapzade'nin şiirlerinde hayat felsefesi /Erol Kamal //I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları, 13-15 dekabr 2012.- Bakı, 2012.- S.27-37.

12. Öztürk, R. Vahabzadenin bir şiirinden hareketle şiirde dil kullanımına yönelik düşüncesinin dilbilim bakımından incelenmesi, Türkiye, Ankara, 2014, S.453.

13. Uslu, R. Türk dünyasının kültür ve sanat adamlarının Baxtiyar Vahabzade hakkindaki sözleri /R.Uslu //I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları, Türkiye, İzmir, 2022.- S.516-519.

**Daxil oldu: 01.04.2025**
**Qəbul edildi: 10.06.2025**